**Serdar Çələbi: Bakı Sammiti iqlimlə bağlı birgə fəaliyyətin təşviqində əhəmiyyətli ola bilər**

Ətraf mühitin çirkləndirilməsi iqlim dəyişikliyi böhranına səbəb olur. Bütün bu problemlərin səbəbkarı isə insanlardır. Ona görə də böyük fəlakət gəlmədən insanlar bunun cəzasını çəkir. Hazırda təmiz suya və havaya əlçatanlılıq hər birimiz üçün həyati əhəmiyyətə malikdir.

AZƏRTAC xəbər verir ki, bu sözləri Avropa Türk-İslam Birliyinin prezidenti, Avrasiya Strateji Araşdırmalar Mərkəzinin baş direktoru Musa Serdar Çələbi Dünya dini liderlərinin qlobal Bakı Sammitinin ikinci günündə keçirilən plenar iclasda deyib.

İqlim dəyişikliyi böhranının qarşısını almaq üçün insanların maarifləndirilməsinin vacibliyinə diqqət çəkən Musa Serdar Çələbi vurğulayıb ki, COP29 ərəfəsində Dünya dini liderlərinin qlobal Bakı Sammitinin keçirilməsi birgə fəaliyyətin təşviq edilməsində əhəmiyyətli ola bilər.

**AZƏRTAC**
**2024, 6 noyabr**